



İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun mədəniyyət attaşesi

# İranda Sağlamlıq Turizmi

# Health Tourism in Iran








**İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun mədəniyyət attaşesi**

# İranda Səhiyyə Turizmi

## « Təcrübə, imkanlar və təbii resursların unikal kombinasiyası»

Son illərdə İranın səhiyyə turizmində artan inkişaf tendensiyası müşahidə olunmaqdadır. Belə ki, tibb sahəsindəki inkişaf və tərəqqi elm, texnologiya və səhiyyə xidmətləri sahələrində mühüm uğurlara imza atmaqla yanaşı, ölkəmizi regionun və dünyanın elmi və tibbi mərkəzlərindən birinə çevirib.

İranın bir neçə min illik tibbi bilik və əxlaq tarixi, mütəxəssis həkimləri, ən müasir avadanlıq, müasir texnologiya və tibbi avadanlıqla təchiz edilmiş geniş xəstəxana və cərrahiyyə mərkəzləri şəbəkəsi, sonsuzluğun müalicəsi, kök hüceyrələr, ürək-damar cərrahiyyəsi, göz cərrahiyyəsi, estetik cərrahiyyə, xərçəng diaqnozu və müalicəsi, bütün növ transplantasiya və diş müalicələri sahələrində effektiv müalicə üsullarına malik olması ilə yanaşı, həm də digər bir tərəfdən, özünəməxsus coğrafi mövqeyi, səfalı iqlimi, möhtəşəm təbiət mənzərələri, şəfa verən təbii mənbələri səhiyyə turizmi sahəsində yüksək potensiala malikdir. İran dünya səhiyyə turizmi sahəsində fəal və aparıcı ölkələr sırasındadır.

İranın Mədəni İrs, Turizm və Əl İşləri Sənayesi Nazirliyi hər zaman ölkənin səhiyyə turizmi strategiyaları çərçivəsində, səhiyyə sahəsində mövcud sektorları aktivləşdirərək, profesional sağlamlıq sertifikatına malik olan turizm şirkətlərin sayını artıraraq lazımi tədbirləri həyata keçirməklə, İranda səhiyyə turizminin güclənməsi və inkişafı sahələrində əhəmiyyətli addımlar atmışdır. Bu isə, İranın dünya səhiyyə turizmi bazarında olan payını artırmışdır.




# İranın sağlamlıq turizmində üstünlükləri:

# Müalicə turizmi

Çox zəngin tarixə malik İran müalicə turizmi, keyfiyyətli xidmətləri və sərfəli qiymətləri ilə yanaşı, müxtəlif tarixi, mədəni, təbii və istirahət məkanlarına malik olması səbəbindən, regiondan və dünyadan sağlamlıq turistlərini özünə cəlb etməkdədir.

- **Tibbi təchizat**

İran müasir xəstəxana avadanlıqları və tibb mühəndisliyi ilə tanınmaqdadır. İrandakı xəstəxanalar, müalicə mərkəzləri və ixtisaslaşdırılmış laboratoriyalar geniş spektrli qabaqcıl texnologiyalar, ən müasir xəstəxana avadanlıqları, o cümlədən də, diaqnostik və müalicəvi xidmətləri, cərrahiyyə əməliyyatları və intensiv terapiya aparmaq üçün xəstəxanada yerləşdirilən rentgen avadanlıqları ilə təchiz edilmişdir.

- **Bacarıqlı & təcrübəli həkimlər**

İran təcrübəli və məharətli həkimləri ilə tanınır. Bu gün İran həkimlərinin müalicə və səhiyyə sahəsində olan bilik və xidmətləri o səviyyədədir ki, dünyanın hər yerindən olan xəstələrlə seanslarlar aparmaq və onları müalicə etmək imkanlarına malikdirlər. İran həkim qrupu xəstənin gəldiyi vaxtdan tam sağalana qədər, hətta lazım olarsa, onun yaşadığı ünvana qayıtmasından sonra da, onun müayinəsini apara bilər.

- **Münasib Xidmətlər**

İranda tibbi turist kimi siz VİP xəstə sayılırsınız. Heç vaxt mütəxəssis həkim və uyğun xəstəxana tapmaq üçün gözləməli olmayacaqsınız. Məqsədinizə çamaq üçün sizə lazım ola biləcək hər növ yardım təmin ediləcəkdir.

- **Qabaqcıl müalicə üsulları**

İran kök hüceyrələr sahəsində əhəmiyyətli imkanlara malik olmaqla yanaşı, estetika və müalicə sahələrində üz və bədən orqanlarının estetik əməliyyatı, estetik stomatologiya, sonsuzluq,arıqlama əməliyyatları, ortopediya, ürək cərrahiyyəsi, xərçəng xəstəliyinin diaqnostikası və müalicəsi, toxuma və orqan transplantasiyası, neyrocərrahiyyə, onurğa zədələrinin müalicəsi və oftalmologiya da daxil olmaqla geniş çeşiddə tibbi xidmətlər təklif edir.

- **Tibbi Xərclərin & Xidmətlərin səmərəliliyi**

Qlobal və regional miqyasda tibbi xərclərin və xidmətlərin iqtisadi səmərəliliyi İranın müalicə turizmində mühüm üstünlüklərindən biridir.










## iranın tibbi turizm sahəsində uğurları

- IVF araşdırmalarına əsasən, İran sonsuzluğun müalicəsində regionda birinci yerdədir.

- İran sonsuzluğun müalicəsi və doğum sahəsində dünyada dördüncü yerdədir.

- Diş müalicələrində, xüsusən də kosmetik stomatologiyada dünyada 12-ci yerdədir.

- Ürək-damar sahəsində ən yaxşı 10 ölkəsi arasında (Yaxın Şərq bölgəsində)

- Kosmetik əməliyyatların sayına görə dünyada 10-cu yerdədir.

- İran nevrologiyası sahəsində 200 ölkə arasında 27-ci yerdədir.

- İran saç əkilməsi və bərpasında qlobal standartlara cavab verən ölkələr sırasındadır.




İranda Sağlamlıq Turizmi

# İranda Tibb Turizminin Ən Əhəmiyyətli İstiqamətləri



**Tehran-Yaxın Şərqin Qəlbi**

Baxmayaraq ki, Tehran şəhəri İranın paytaxtı kimi ölkənin müxtəlif sahələrdə ən mühüm tibb mərkəzidir, ancaq Yaxın Şərqdə ən yaxşı ürək xəstəxanasının və dünyanın beş/altı ən mühüm ürək xəstəxanasından birinin burada olması bu şəhəri Yaxın Şərqin qəlbinə çevirir.

İranda sonsuzluq xəstəliklərinin müalicəsində aparıcı mərkəzlərdən biri olan “Royan Elmi-Tədqiqat İnstitutu” bir çox fərqli ölkələrdən olan cütlüklərin bu tədqiqat institutunda müalicə aldığı mühüm mərkəzlərdən biridir.

Nur Oftalmologiya Xəstəxanası ixtisaslaşmış mütəxəssisləri və qabaqcıl avadanlıqları ilə Yaxın Şərqin ən qabaqcıl göz müalicəsi mərkəzinə çevrilmişdir.

Həmçinin burada olan incəsənət qalereyaları, müasir əyləncə mərkəzləri, ticarət məntəqələri, tarixi-mədəni abidələr müalicə və bərpa müddəti ərzində turistlər və onları müşayiət edənlərin zövqünü oxşayacaq.



**Şiraz -Yaxın Şərqin Qaraciyər Transplantasiyası Mərkəzi**

İranın cənubundakı sağlamlıq turizminin mərkəzi olan Şiraz, hər il minlərlə xarici xəstə qəbul edən Yaxın Şərqin ən məşhur tibbi turizm şəhərlərindən biridir. Yaxşı təchiz olunmuş ixtisaslaşdırılmış və yarımixtisaslaşdırılmış xəstəxanalara malik olan şəhər təcrübəli və bacarıqlı həkimləri vasitəsilə orqan transplantasiyası, oftalmologiya, estetik cərrahiyyə, ürək, damar və sonsuzluğun müalicəsi sahəsində geniş çeşiddə tibbi xidmətlər təklif edir.

Bundan əlavə, fars dilinin şeir və ədəbiyyat şəhəri olan Şiraz şəhəri, yer üzünün cənnət bağçası kimi həm təbiətin, həm də tarixin təzahürü olan tarixi-mədəni abidələri və hüzur bəxş edən bağları ilə, buraya səyahət edən turistlərə yaşamağın həzz verir.



## Yəzd-Yaxın Şərqdə Sonsuzluğun Müalicəsi Mərkəzi

Yəzd şəhəri tibb sahəsində müxtəlif yeni texnologiyalarla təchiz olunmuş ixtisaslaşdırılmış tibbi mərkəzləri ilə , həmişə xüsusi əhəmiyyətli yer olmuşdur. Yəzd şəhəri tibbi turizmdə Yaxın Şərqdə İranın ilk sonsuzluq müalicəsi mərkəzi və sonsuzluq xidmətlərinin göstərildiyi ən ucuz mərkəz kimi tanınır. Orada verilən imkanlar dünya elmi və texnologiya standartlarına cavab verməkdədir. Küveyt, İraq, BƏƏ, Azərbaycan, Pakistan və Əfqanıstandan turistlər burada müalicəyə gəlməkdədirlər.

Yəzd şəhərinin dünyanın ilk kərpic şəhəri olması, külək və su kəmərlərinə, orijinal əl işlərinə malik olması, dünyadakı ikinci tarixi şəhəri hesab olunması, ekoturizm və sağlamlıq turları üçün ən yaxşı məkanlara malik olması, Yəzd şəhərinin bir neçə min illik tarixi ilə yanaşı, unikal arxitekturaya malik olması, o cümlədən də, müqəddəs yerlər, nadir tarixi və təbiət abidələri ilə zənginliyi turistlərin müalicə dövrünü təkrarolunmaz təcrübələrlə keçirməsinə şərait yaradacaqdır.



## Məşhəd

Son illər beynəlxalq standartlarla təchiz olunmuş xəstəxanaları və təcrübəli tibb işçiləri olan Məşhəd şəhəri ölkədə xərçəng xəstəliyinin müalicəsi və orqan transplantasiyasının həyata keçirilməsi üzrə önəmli tədqiqat mərkəzlərindən birinə çevrilib. Bu tibbi xidmətlərlə yanaşı, saç əkimi, rinoplastika, göz əməliyyatı və sonsuzluq kimi xəstəliklərin müalicə xidmətləri də beynəlxalq standartlara uyğun təmin edilir.

Bu şəhər həm də İmam Rzanın (ə) hərəminin olması səbəbindən önəmli dini turizm mərkəzi hesab olunur. Müsəlman həkimlərin güvən hissi bəxş etməsi ilə yanaşı, dini mənəvi atmosfer də Məşhədin turistlər tərəfindən sağlamlıq turizmi məkanı kimi seçilməsində ən mühüm amillərdəndir.

# İranın Sərhəd Əyalətləri

## Sistan və Bəluçistan



Əyalətdə xarici xəstələri qəbul etmək sertifikatına malik olan 2 səyahət və turizm xidmətləri şirkəti, IPD sertifikatlı 2 xəstəxana mövcuddur. Bu şəhər xüsusilə də, əyalətlə həmsərhəd ölkələrdən, o cümlədən Əfqanıstan, Pakistan, Oman və İraq, Orta Asiya, BƏƏ və Afrikadan göz, ürək və qadın xəstəliklərinin müalicəsi üçün bu ünvana gələn sağlamlıq turistləri üçün bir önəmli bir məkandır.
Həmçinin, Taftan və Bazman bölgələrində isti mineral bulaqların olması bu əyaləti sağlamlıq turistləri üçün əhəmiyyətli bir məkana çevirmişdir.

## Qərbi Azərbaycan Əyaləti



Qərbi Azərbaycan vilayəti 10 ipd lisenziyalı müalicə mərkəzləri, hidroterapiyaları, palçıq müalicəsi, qum, masaj və duz terapiyası da daxil olmaqla sağlamlıq turizmi xidmətləri göstərmək qabiliyyətinə malik 7 sahəsi, bir sağlamlıq kəndi, 17 yerləşdirmə mərkəzi, 9 ekoturizm yerləşdirmə bölməsi, 11 peşəkar sağlamlıq turizmi sertifikatına sahib Səyahət və Turizm Xidmətləri Ofisi, çoxlu sayda dərman bitkiləri və gözəl təbiəti, o cümlədən dağları, gölləri, şəlalələri və meşələri ilə Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, İraq Kürd Bölgəsi və Türkiyədən gələn turistlər üçün saçların bərpası və əkilməsi, oftalmologiya, ürək-damar xəstəlikləri, pediatriya, ortopediya, urologiya, nevrologiya, LOR, xərçəng və hematologiya, rekonstruktiv cərrahiyyə, qaraciyər və mədə-bağırsaq traktının estetik və cərrahi əməliyyatları, sonsuzluq müalicəsi, mamalıq və digər sahələrdə xidmət göstərməkdədir.



## Elam

Sağlamlıq turizmi lisenziyasına malik 3 aktiv səyahət və turizm xidmətləri şirkətinə, İpd sertifikatlı xəstəxana otelinə, ərəb və ingilis dillərini mükəmməl bilən ixtisaslaşmış işçi heyətinə malik olan İlam əyaləti sağlamlıq turistlərinin qəbulu üçün xüsusi potensialı mövcuddur. Bura İsti su kompleksi infrastrukturu, turistlər üçün nəzərdə tutulmuş 7 kəndi, İraqla ən uzun sərhədə malik olması, cərrahiyyə, oftalmologiya və estetik cərrahiyyənin müxtəlif sahələrində İraqdan gələn sağlamlıq turistləri qəbul etməsi baxımından çox önəmli bir bölgədir.



## Hormozqan

Əyalətin IPD beynəlxalq lisenziyaya malik 3 tibb mərkəz və xəstəxanası, həmçinin Oman, Qətər, Bəhreyn və BƏƏ-dən sağlamlıq turistlərini qəbul etmək üçün iki turizm və hidroterapiya kompleksi var. Onlar qohumluq və mədəni əlaqələri səbəbindən sonsuzluq, göz, estetik əməliyyatlar və digər tibbi xidmətlər sahələrində müalicə üçün bu əyalətə səfər edirlər. Həmçinin Məkran sahilinin isti bulaqları və vulkanları çoxdan qətərlilərin, omanlıların və Fars körfəzinin digər ölkələrinin sevimlisinə çevrilib.

# İranın Sərhəd Əyalətləri



## Gilan

Gilan əyaləti sağlamlıq turizmi sahəsində fəaliyyət göstərən 6 IPD lisenziyalı xəstəxanası və 5 səyahət xidmətləri ofisi ilə Azərbaycan Respublikası, İraq, Əfqanıstan, Livan, Oman və İordaniyadan sağlamlıq turistləri, xüsusən də göz, gözəllik və ürək-damar xəstəliklərinin müalicəsi, ortopediya, qadınların doğuşu və s.üçün önəmli bir məkandır.

Gilan vilayətində lisenziyalı xəstəxanalar və sağlamlıq mərkəzləri tərəfindən xarici turistlərə ənənəvi və ya alternativ tibb xidmətlər də göstərilməkdədir. Həmçinin təbiət terapiyası məqsədi ilə dəri xəstəliklərinin, sümük və revmatizmin müayinəsi üçün 8 mineral bulağı, gözəl və təmiz təbiəti olan Gilana səyahət etmək, mineral bulaqlardan və bataqlıqlardan istifadə etmək qədim zamanlardan etibarən turistlərin marağına səbəb olub.





## Şərqi Azərbaycan

30 xəstəxanası, o cümlədən, 11 ixtisaslaşmış və yarımixtisaslaşdırılmış xəstəxanaları ilə beynəlxalq turistləri qəbul infrastrukturuna malik olan bu vilayət Azərbaycan Respublikası, Naxçıvan, Ukrayna, Türkiyə və İraqdan xüsusilə ürək-damar xəstəliklərinin doğuş və sonsuzluq, stomatologiya, tənəffüs xəstəlikləri və vərəm, qaraciyər və s. xəstəliklərin müalicəsi üçün turistləri qəbul edir.

## Şimali Xorasan

Ümumi cərrahiyyə xidmətləri, estetik cərrahiyyə növləri, göz, burun, ginekoloji cərrahiyyə, stomatologiya, həmçinin dəri xəstəlikləri üçün müalicəvi xüsusiyyətləri, o cümlədən, 3 qaynar və mineral su bulaqları, bitki mənşəli effektiv müalicəvi dərmanları, ixtisaslaşmış cərrahiyyə mərkəz və klinikalarının, təmiz təbiət mənzərələrinin olması bu əyaləti sağlamlıq turistləri üçün unikal bir məkana çevirmişdir.





## Mazandaran

Sonsuzluğun müalicəsi, qadın və gözəllik xidmətləri kimi xidmətlərlə əcnəbi xəstələri qəbul edən üç fəal tibb mərkəzinin, o cümlədən xarici turistlər üçün yaşayış və hidroterapiya mərkəzinin, Larican, Ramsar və Amolda müalicəvi xüsusiyyətlərə malik mineral duzlu isti bulaqlarının, qırmızı, narıncı və sarı rəngli müxtəlif pilləli qeyzerlərinin, müalicəvi xüsusiyyətləri olan duz və minerallarının, bənzərsiz təbii attraksionlarının olması səbəbindən bu vilayət Fars körfəzindən, MDB və Avropa ölkələrindən gələn beynəlxalq turistlər üçün xüsusi önəmə malik olan bir məkana çevirmişdir.

# İranın Sərhəd Əyalətləri



## Kürdüstan

IPD lisenziyası olan 12 xəstəxana və cərrahiyyə kliniki mərkəzləri, səhiyyə turizmi xidmətləri göstərmək üçün lisenziyası olan 7 turizm obyekti, sağlamlıq turizmi xidmətləri kompleksi, Səhiyyə Turizmi Məlumat Ofisi və səyahət xidməti şirkətləri, həmçinin, müxtəlif dərman bitkisi növləri və mineral bulaqları olan təmiz təbiətə malik vilayət İraq Kürdüstan bölgəsindən nevroloji və ürək xəstəlikləri, KBB, oftalmologiya, rinoplastika və abdominoplastika müalicələrinə görə sağlamlıq turistləri üçün xüsusi əhəmiyyətli bir məkandır.



## Kirmanşah

Kirmanşah vilayəti IPD bölmələri olan 9 xəstəxanası, sağlamlıq lisenziyası olan 5Turizm Səyahət Xidmətləri Ofisi ilə İraqdan gələn xəstələrə Ümumi cərrahiyyə, ortopediya və neyrocərrahiyyə, mamalıq və ginekologiya, buynuz qişa transplantasiyası, estetik cərrahiyyə, oftalmologiya xidmətləri, LOR, ürək-damar və böyrək xəstəliklərinin müalicəsi kimi xidmətlər göstərməkdədir.



## Gülüstan

2 IPD lisenziyalı xəstəxanaya, həmçinin xüsusi və unikal iqlim şəraitinə, yay və dağ kəndlərinə, 115 eko-lojaya, eləcə də peşəkar sağlamlıq turizmi sertifikatına malik 5 turizm xidmətləri şirkəti ilə ikitərəfli sinüzit, təkrar yırtıq, boyun limfa düyünləri, sinoplastika, rinoplastika, mədə bypass kimi müalicə imkanları ilə Əfqanıstan, Qazaxıstan, Oman və İraqdan gələn sağlamlıq turistləri üçün əsas ünvandır.



## Ərdəbil

Əyalət 4 IPD lisenziyalı tibb mərkəzinin, o cümlədən, ənənəvi tibb mərkəzlərinin, müxtəlif yerlərində 110 mineral bulağının, beynəlxalq səviyyədə xidmət göstərən 34 müasir hidroterapiya kompleksinin, həmçinin gözəl təbiət mənzərələri ilə turistlərə zövq bəxş edir. Xüsusilə yaz və yay aylarında unikal havası səbəbindən Azərbaycan, İraq, Qazaxıstan, Oman, Türkiyə, Sudan, Avstraliya, Şri-Lanka və İtaliyadan olan sağlamlıq turistlərinin transplantasiya, ürək-damar xəstəlikləri, xərçəng, ortopediya, diş həkimliyi, sinir cərrahiyyəsi, sonsuzluq, oftalmologiya, estetika, hüceyrə müalicəsi sahələrində tibbi xidmətlər almaq üçün üz tutduqları xüsusi məkandır.



## Xuzestan

Xuzistan əyaləti IPD şöbələri olan 11 dövlət və özəl xəstəxanası və sağlamlıq turizmi sahəsində fəaliyyət göstərmək üçün lisenziyası olan 6 səyahət və turizm xidmətləri ofisi ilə İraq, BƏƏ, Oman, Küveyt və Fars körfəzinin digər ölkələrindən sağlamlıq turistlərini qəbul edir.



## Cənubi Xorasan

IPD sertifikatına malik olan 2 xəstəxanası və bir hidroterapiya kompleksi ilə Əfqanıstandan sağlamlıq turistləri üçün, xüsusilə ürək xəstəliklərinin müalicəsində, orqan transplantasiyası, nevrologiya və neyrocərrahiyyə üçün bir yerdir.

# Sağlamlıq & Müalicəvi Turizm

İran coğrafi və iqlim müxtəlifliyinə görə unikal və təbii landşaftları, o cümlədən, şimalda Xəzər dənizinin gözəl sahilləri, cənubda Fars körfəzi və Oman dənizi, şimalda geniş Hirkan meşələri, cənub sahillərində Manqr meşələri, qərbdə dağlıq ərazilər, dünyanın ən böyük, misilsiz və məşhur çöllərindən biri olan Lut səhrası, beynəlxalq su hövzələri, mağaraları, şəlalaələri və mineral bulaqları ilə tanınır. Bütün bunlar İranı sağlamlığın qorunması, gündəlik həyatın stress və narahatlıqlarından xilas olmaq, gəncləşmək və müalicəvi imkanlardan həzz almaq üçün məkan axtaran turistlərin hər cür maraq və zövqlərinə cavab verən əlverişli məkana çevirən amillərdir.





# İranın Sağlamlıq Turizmində Üstünlükləri&Təbiət Terapiyası



## Mineral bulaqlar

İranda ölkənin əksər bölgələrində müxtəlif tərkibli yüzlərlə isti və soyuq mineral su bulaqları var. İran isti bulaqları əhəmiyyətli geokimyəvi müxtəlifliyi səbəbindən, sinir, revmatik, oynaq, əzələ və dəri xəstəliklərini aradan qaldırmaq və yaxşılaşdırmaq qabiliyyətinə malikdir.

Bu bulaqların müalicəvi xüsusiyyətləri ilə yanaşı, təbii effektləri, gözoxşayan mənzərəsi, xoş iqlimi, ənənəvi və müasir turistik məkanları və müxtəlif xidmətləri olan ərazilərdə yerləşməsi səbəbindən, bu ərazilərə hər il səyahət edən bir çox sağlamlıq turistinin daim diqqət mərkəzində olmuşdur. Bu arada, Savalan dağının ətəyində yerləşən Səreyin turizm şəhəri bol mineral su bulaqlarına malik olduğuna görə İranda isti və müalicəvi suların əsas mərkəzidir.

Təbii potensilaına görə İranda ilk yeri tutan Mazandaran vilayətinin mineral suları, bu vilayətin ən mühüm təbii turistik yerlərindən və sağlamlıq mərkəzlərindən biridir. O cümlədən, Ramsar və Laricandakı qırmızı, narıncı və sarı rənglərə malik "Bədəb Surət"in rəngarəng mineral bulaqları turistlərin müayinə və müalicə üçün üz tutduqları əsas məkanlardandırlar.

İranın çiçək və bitki paytaxtı kimi tanınan Mərkəzi vilayəti, Buşəhr vilayətinin Əhram, İlam vilayətinin Dehloran, Sistan və Bəlucistan əyalətinin Taftan və Bazman bölgələrində mineral qaynar bulaqları və gözəl çimərlikləri, 46 isti bulağı və mineral su mədənləri olan Bəndər Abbas, Qərbi Azərbaycan vilayəti, Şərqi Azərbaycan vilayətinin Kəlibər, Luristan vilayətinin Delfan bölgələri İranın digər su ilə müalicə mərkəzləridirlər.



## Duz Mağaraları və duz gölü

Urmiya Duz Gölü və duz mağaraları, o cümlədən, Gərmsar Duz Mağarası, İsfahanın Xur və Biyabank duz şəlalələri İranı sağlamlıq turistləri üçün duz terapiyası, tənəffüs yolları və dəri xəstəliklərinin müalicəsi üçün əlverişli məkana çevirib.

Daxilində irili-xırdalı 102 ada olan Urmiya gölü, dünyada Ölü dənizdən sonra ikinci duz gölüdür. Bu gölün sahili, duzları, palçığı və yosunları dəri xəstəliklərinin və revmatizmin yaxşılaşdırılmasında təsirli olduğu üçün, hər il xarici və yerli turistləri müalicə, əyləncə və istifadə üçün qəbul etməkdədir.

## Xəzər dənizinin, Fars körfəzinin və Oman dənizinin sahilləri

İranın şimalında Xəzər dənizinin, cənubunda Fars körfəzinin mavi sahilləri və Oman dənizinin sahillərinin olması səhiyyə turizmi sahəsində İrana xüsusi mövqe yaratmışdır. O cümlədən, göl və sahilindən immunitet sisteminin gücləndirilməsinə kömək etmək, əzələləri gücləndirmək, stressi aradan qaldırmaq, dənizin nadir elementlərini mənimsəmək, həmçinin isti dəniz suyunda üzmək (Balneo therapy), çimərlikdə gəzmək və isti qumlarda dincəlməklə (psammo therapy) xəstəlikləri müalicə etmək, çöküntü və ya dəniz yosunu (slime therapy) və təbii günəş işığı terapiyası (Helio therapy) məqsədi ilə istifadə edilməkdədir.





**Səhralar**

Qum terapiyası və günəş terapiyası və meditasiya, ulduzlu səmanı müşahidə və isti qumlarda uzun gəzintilər, dəvə sürmə, safari, ziplayn atraksiyaları ilə çoxlu sayda turisti özünə cəlb etməkdədir.

Kirman əyalətində yerləşən Reyqan bölgəsindəki dünyanın ən böyük qum təpələri sağlamlıq turizmi sahəsində unikal məkanlardan biridir. Turistlər buradakı qumların üzərində yataraq səhra qumunun istisini tədricən udur. Bu isə dəri və oynaq xəstəliklərinin yaxşılaşdırılmasında təsirli çox faydalıdır.

Günəş terapiyası qabiliyyətinə malik Lut səhrası, (səmasında ozon təbəqəsinin olmaması səbəbindən bu səhrada günəş işığının müalicəvi xüsusiyyətləri mövcuddur.) Misir səhrası, Mərəncab səhrası, Helvan səhrası, ilk təbii düşərgə sayılan Mətin Abad səhrası, ən yaşıl səhra adını almış Zərdgah səhrası, İranın ən böyük səhra istirahət yeri sayılan Vərzəneh səhrası və qızıl qumlu səhra İranda ən gözəl yerlərdən biridir. İllərlə su və külək eroziyası nəticəsində yaranan axan qumlar və heyrətamiz yüksək qayalıqları olan Şahdad səhrası, yer üzündə ən qaynar nöqtə kimi Gəndom Buryan düzü, o cümlədən də, vulkanik konuslar, hündür qum piramidaları, boz və qəhvəyi qum təpələrinin geniş əraziləri, təpələri dalğalı qumları İranın səhralarının ən gözəl yerləridirlər.

## Palçıq vulkanlar

Palçıq vulkanlar palçığın torpaqdan bulaqlar şəklində səthə çıxması kimi bilinən təbii hadisədir. Palçıq vulkan layları bir-birinin üstünə yığılaraq kiçik və böyük konuslar əmələ gətirirlər. Vulkanlardan əldə edilən palçığın tərkibində minerallar və üzvi maddələr olduğu üçün bir çox dəri xəstəliklərinin, damar daralmalarının, oynaq ağrılarının, bel ağrılarının və əzələ stenozunun müalicəsində təsirli və faydalıdır. Dünyadakı 800-ə yaxın vulkanın yarıdan çoxu Xəzər dənizi və Oman dənizi ətrafında yerləşir. Bununla yanaşı, Pirgel Xaş İranda yeganə dəniz sahili palçıq vulkan olmayan və İran yaylasında yerləşən ən böyük palçıq vulkandır. Bu vulkanın palçığının soyuq olması isə onun başqa bir qəribə və unikal xüsusiyyətidir. Həmçinin, Sistan və Bəluçestan əyalətindəki Məkran çimərliklərində vulkanlarla yanaşı, turistlər üçün çoxlu attraksionların mövcud olması, bu gözəl məkanı səyahətçilər üçün cəlbedici və yaddaqalan etməkdədir.



# Ənənəvi tibb & dərman bitkiləri

Bir neçə min illik tarixə malik və elmi-təcrübi prinsiplərə uyğun gələn ənənəvi İran təbabəti səkkiz əsrə yaxın Qərb və Şərqin tibb universitetlərinə rəhbərlik etmiş İbn Sina, Razi, Corcani və s. kimi böyük alimlərin səylərinin nəticəsidir. Ənənəvi İran təbabəti xəstəliyə düzgün diaqnoz qoymaq və müvafiq müalicəni təyin etmək üçün bədənin bütün əzalarının sağlamlığını, xəstənin genetikasını, yaşayış şəraitini, psixi xüsusiyyətlərini, yaşını və s. ni nəzərə alırdı. Müalicə üçün ilk mərhələdə həyat tərzi və xüsusilə qidalanma rejimi düzəldilir, daha sonra isə bitki mənşəli dərman müalicəsi, hacamat, masaj və s. ənənəvi İran təbabəti üsullarından istifadə olunurdu. Müxtəlif dərman və ətirli bitkilərin becərilməsi həmişə İran adət və ənənələrinin tərkib hissəsi olub. Dünya üzrə tanınan 13 iqlimdən 11-inin İranda mövcud olması burada dərman bitkilərinin çeşidliliyi baxımından xüsusi yer tutur. İqlim müxtəlifliyinə görə İranda 8000-dən çox bitki növü müəyyən edilmişdir ki, bunun da 2300-dən çoxu dərman mənşəlidir. Bu bitkilərin 1727 –si sadəcə İranın yerli bölgələrinə xas olan növlərdirlər. Bitki mənşəli çaylar və həblər tibbi müayinə və lazımi diaqnozlardan sonra hazırlanır.

Keçmişdə İranda bir çox xəstəliklərin müalicəsində hacamat müalicə üsulu tətbiq edilmişdir. Hazırda ölkənin bəzi tibb mərkəzlərində və tibb məntəqələrində də bu üsuldan istifadə edilir.






majestic IRAN
Handicrafts Mədəni irs,
Turizm və əl İşləri Nazirliyi
İran İslam Respublikasının Naxçıvandakı
Baş Konsulluğunun mədəniyyət attaşesi